ADAU-nun ELMİ ƏSƏRLƏRİ

ISSN 2310-4104 E-ISSN 2790-5799

10.30546/2790-5799.4.2024.043

# BİZNES PROSESLƏRİNİN MAHİYYƏTİ, ONLARIN TƏŞKİLİ VƏ OPTİMALLAŞDIRILMASININ NƏZƏRİ ƏSASLARI

Günel Sadiq qızı Həmidova

## XÜLASƏ

**Tədqiqatın məqsədi –** biznes proseslərinin mahiyyəti, onların təşkili və optimallaşdırılmasının nəzəri əsaslarının müəyyən edilməsi.

**Tədqiqatın metodologiyası –** biznes prosesi anlayışana verilən təriflərin qruplaşdırılması, bizbes proseslərin təsnifatının, neft-qaz hasilatı müəssisələrində biznes proseslərin qruplaşdırılmasının həyata keçirilməsi.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Aparılmış tədqiqtlar göstərir ki, istənilən müəssisədə əsas (profil) və köməkçi (qeyri-profil, infrastruktur) proseslər vardır və onların arasındakı fərqləri anlamaq lazımdır.Üstünlük Neft-qaz hasilatı müəssisələrində biznes proseslərin qruplaşdırılması və biznes proseslərin optimallaşdırılması texnoloji prosesin rəqabət aparan xassələri ilə bağlı problemlərin həllini müəyyən etməyə imkan yaradacaqdır.

**Tədqiqatın nəticələri** –tədqiqat zamanı məlum olmuşdur ki, səmərəlilik və rentabelliyin təmin edilməsi, müştərək təkmilləşdirilmiş xidmətin göstərilməsi təcrübəsinin olması, innovasiyalardan geniş və vaxtında istifadə, risklərin yüksək dərəcədə idarə edilməsi şərtləri biznes proseslərinin təşkili və optimallaşdırılması təşkilatın səmərəliliyinin, rentabelliyinin, rəqabət qabiliyyətinin və uğurunun artırılması üçün əsas vasitədir.

**Tədqiqatın elmi yeniliyi –** biznes prosesi anlayışana verilən tərifləri, bizbes proseslərin təsnifatı, o cümlədən neft-qaz hasilatı müəssisələrində biznes prosesləri ımüqayisəli surətdə öyrənilmişdir.

**Açar sözlər:** biznes prosesi, proses yanaşma, neft-qaz, müəssisə, optimallaşdırma,qruplaşdırma.

**Giriş.** Dünya və yerli iqtisadiyyatdakı böhran hadisələri milli müəssisələrin fəaliyyətinə təsir edərək onların biznes proseslərinin reallaşmasını çətinləşdirir. Müəssisə öz rəqabət qabiliyyətini artırmaq üçün xərcləri minimuma endirməli, resurs axınlarını idarə edərək gəlirlərini qorumağa çalışır. Burada söhbət həm müəssisədaxili, həm də xarici şərtlərin dəyişməsi fonunda yaranan itkilərin qarşısının alınması və aradan qaldırılmasından gedir. Məlumdur ki, ənənəvi qaydada yeni texnologiyanın tətbiqi barədə qərar verərkən texnoloji prosesin variant seçimi, normativlərin və texniki-iqtisadi göstəricilərin hesablanmasına əsaslanır (Нестеренко və b.,2015). Nəticədə məhsullar hazırlayan və ya xidmət göstərən müasir müəssisələrin fəaliyyət elementlərini vahid sistem şəklində proses yanaşması çərçivəsində nəzərdən keçirmək məqsədəuyğun olur. Bu, yenilikləri tətbiq etməklə yanaşı, gündəlik fəaliyyətdə həm də səmərəliliyin təmin edilməsi üçün bir zəmin yaradır.

İdarəetmənin proses yanaşmasına görə müəssisədəki idarəetmənin obyekti təşkilatın prosesləridir (Мосьяков,2011). Müəssisənin hər bir struktur bölməsi müəyyən prosesin icraçısıdır və proses yanaşması qarşılıqlı əlaqədə olan biznes proseslərin şəbəkəsi olan fəaliyyəti nəzərdən keçirir (Джапаров və Ибрагимова, 2023). Proseslərin tənzimlənməsi təşkilatın necə işlədiyini aydın bir şəkildə izah edir, istehlakçı üçün dəyər yaratmayan prosesləri görmək və minimuma endirmək, bununla da xərcləri azaltmaq və bazarda rəqabət üstünlüyü əldə etmək imkanı verir (Ишмурадова və Шагаипов, 2016).

Azərbaycan iqtisadiyyatı üçün aparıcı mövqedə olan neft-qaz müəssisələrinin biznes proseslərinin müasir tələblərə uyğunlaşdırılması strateji əhəmiyyət daşıyır. Neft və qazın qiymətinin, investisiya qoyuluşları və beynəlxalq tənzimləyici mühitin dəyişməsi, ekoloji tələblər neft-qaz sənayesində inkişaf strategiyasını işlənib hazırlanarkən və qərarlar qəbul edilərkən nəzərə alınmalı olan əsas xarici amillərdir. Biznes proseslərinin iqtisadi aspektləri isə neft-qaz müəssisəsində həlledici rol oynamaqla vacib şərt kimi onun gəlirliliyini və dayanıqlılığını müəyyən edir.

Əsas müəllif/Corresponding author: Günel Sadiq qızı Həmidova, UNEC , "Karyera planlaşdırılması və inkişafı" kafedrası, müəllim, UNEC dissertant, e-mail: hamidova_gunel@unec.edu.az

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.4.2024.043

Ona görə müasir şəraitində biznes prosesinin təkmilləşdirilməsi, neft-qaz hasilatı müəssisələrində səmərəliliyinin artırılmasına, resursların idarə olunması strategiyasının düzgün seçilməsinə əsaslanır.

Biznes proseslərin optimallaşdırılmasına gəldikdə isə bu, müəssisənin iş və xidmətlərinin xarici rəqabət mühitinin tələb etdiyi yeni səviyyəsinə nail olmaq üçün transformasiya olunmasını nəzərdə tuta bilir (Руденко və Храменок, 2013). Müəssisə və təşkilatlarda biznes proseslərinin xüsusiyyətləri xarici ədəbiyyatda kifayət qədər təmsil olunmuşdur (Комиссарова, 2011; Медведев, 2016; Остроухова, 2015). Sənaye müəssisələrinin idarə edilməsi prosesinə müxtəlif yanaşmalara baxmayaraq, müəssisələrin biznes proseslərinin daha səmərəli olması üçün yeni texnologiyaların, metodların və mexanizmlərin işlənib hazırlanması hələ də aktualdır. Müəssisələrin təcrübəsində proses yanaşmasının tətbiqi müşahidə edilsə də bu problem gündəmdə olaraq qalır. Bununla belə, elmi ədəbiyyatda bu sahəyə əhəmiyyətli töhfə verilməsinə baxmayaraq, neft-qaz sənayesində biznes proseslərinin təşkili və optimallaşdırılması məsələlərinin öyrənilməsi hələ də vacibdir. Bu tələb biznes proseslərinin iqtisadi səmərəliliyini artırmaq üçün müxtəlif vəziyyətlərdə optimallaşdırma ehtiyacı ilə bağlıdır.

**Tədqiqatın şəraiti və metodikası**. Müəssisənin biznes proseslərinin mahiyyətinin düzgün formalaşdırılması yeni sistemlərin və ya texnologiyaların tətbiqi kimi dəyişiklikləri, innovasiyaları daha yaxşı idarə etməyə imkan verir. Cari prosesləri düzgün başa düşmək və təhlil etmək, hansı dəyişikliklərin lazım olduğunu və onların digər proseslərə və ya şöbələrə necə təsir edəcəyini müəyyən etməyə imkan verir. Bu da gələcəkdə rutin və dəqiqlik tələb edən, həm də çətin işlərin avtomatlaşdırma üçün baza rolunu oynaya bilər. Biznes proseslər düzgün və dəqiq sənədləşdirilərsə və istər icraçılar, istərsə də rəhbərlər tərəfindən xırdalıqlarına qədər başa düşülərsə və konkret alqoritm halına salınarsa, proqram təminatı və ya prosesin idarə edilməsi sistemlərindən istifadə etməklə onlar daha asan avtomatlaşdırıla bilir. Bu, müəssisənin səmərəliliyin artmasına, xərclərin azalmasına və səhvetmə riskinin azalmasına səbəb olur.

Ümumiyyətlə, müəssisənin biznes proseslərinin mahiyyətinin düzgün müəyyən edilməsi onların optimallaşdırılması, səmərəliliyinin artırılması və uğurlu idarə olunması üçün əsas mərhələdir. Bu, müəssisənin fəaliyyətində problem sahələri müəyyənləşdirməyə və zəruri dəyişiklikləri təyin etməyə kömək edir, ünsiyyəti yaxşılaşdırılmasına, səmərəliliyə xidmət edəcək dəyişikliklərin aparılmasına bir zəmin yaradır.

Neft hasilatı müəssisələrində biznes proseslərinin təşkilinin effektivliyinin tədqiqini biznes prosesi kateqoriyasının dəqiq müəyyən edilməsi vasitəsilə aparmaq lazımdır. Ancaq apardığımız təhlil göstərir ki, müəssisənin biznes proseslərinin mahiyyətinin formalaşdırılması heç də asan olmayan uzun tarixi bir yola malikdir və bu, elmi-praktiki proses olaraq hələ də davam edir.

Əksər müəssisələrin funksiya və səlahiyyətlərinin iyerarxik şəkildə təşkil olunması insanları belə bir idarəetmə modelinin uğurlu və təbii olduğunu düşünməyə vadar etmişdir. Belə ki, 19-cu əsrin sonlarından təşkilatların strukturu elmi metodlardan istifadə edilməklə öyrənilir.

F.U. Teylorun idarəetməyə elmi yanaşması bu fikirlərin ən yaxşı ifadəsidir. O, təklif edirdi ki, əməyin daha sadə elementlərə bölünməsi və işçilərin, xüsusən də menecerlərin ixtisaslaşması nəticəsində iş daha səmərəli həyata keçiriləcək. Bundan əlavə, o, idarəetmənin vacibliyini vurğuladı və qeyd etdi ki, standartlaşdırma, qabaqcıl təcrübələrin sürətlə mənimsənilməsi və əməkdaşlığın artırılması yolu ilə işin daha sürətli görülməsi

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.4.2024.043

mümkündür.Standartlara riayətetmə və kooperasiyanın artımı üzrə vəzifə yalnız rəhbərlərin üzərinə düşür (Тейлор, 1991). Bu baxışların təbii nəticəsi olaraq təşkilati strukturların və proseslərin funksional quruluşu üzrə ideyaların geniş yayılması baş verdi.

Növbəti dalğa, teylorizmin - effektiv idarəetmə üçün ixtisaslaşma, prosesin fərdi olaraq mütəxəssislər tərəfindən həyata keçirilən hissələrə ayrılması tələbinin ardınca, biznes proseslərinin reinjinirinqi məsələlərinin gündəmə gəlməsi oldu. Belə bir fikir yarandı ki, iş yerinə geniş bilik və bacarıqlara malik, müxtəlif funksiyaları birləşdirə bilən insanlar gəlməlidir. Bu ideya bu gün də aktualdır və onun təsdiqi təkcə maliyyə göstəricilərinə deyil, həm də texnoloji və sosial-psixoloji məqsədlərə əsaslanmalıdır. Bundan əlavə, bu meyarlar həmişə iş prosesinin inkişafını, risklərini və təşkilini nəzərə almalıdır (Кутелев və Мишурова, 2003).

Hazırda müəssisədə reallaşan "biznes prosesləri"nin açıqlanması - istehsal, idarəetmə və infrastruktur proseslərin məcmusu kimi onun strukturu haqqında fikir kimi ön plana keçir. Biznes prosesləri öz təbiətinə görə fərqli proseslərin geniş spektrindən ibarətdir. Ümumiyyətlə, proses dedikdə, resurslar dəstinin bir qayda olaraq yeni bir resursa və ya yeni bir resurslar dəstinə çevrilməsi başa düşülür (Harrington, 1991).

Amma qeyd etmək lazımdır ki, biznes prosesinin hamı tərəfindən birmənalı şəkildə qəbul edilən sabit tərifi yoxdur. Müxtəlif elmi ədəbiyyatlarda qarşılaşdığımız terminologiyanın fərqli verilməsi çox vaxt elmi terminlərin bizim dilimizə ingilis dilindən keçməsi ilə izah oluna bilər. Beləliklə, gəldiyimiz nəticə belə olmuşdur ki, biznes prosesi anlayışının çoxlu sayda tərifi vardır və təəssüf ki, bu mövzuda müəlliflərin fikirləri nəinki bir-birinə uyğun gəlmir, həm də belə fərqli fikirlərin sayı kəskin böyükdür. Buna baxmayaraq biz onların qruplaşdırılmasına və əsas tərifləri verməyə çalışaq (bax: cədvəl 1).

Beləliklə, aşağıdakı cədvəl 1. məlimatları əsasında olan təhlil göstərir ki, biznes prosesləri işlərin (funksiyaların və ya əməliyyatların) icrasının davamlılığı, onların məntiqi birləşməsi, həm xarici, həm də daxili tələbin mövcudluğu ilə xarakterizə olunur, müəssisənin imkanları nəzərə alınmaqla istehlakçı üçün gəlirin əldə edilməsinə və faydalılığın (dəyərin) artırılmasına yönəldilən istehsal-idarəetmə tədbirlərinin məntiqi ardıcıllığı kimi başa düşülür.

**Cədvəl 1. Biznes prosesi anlayışana verilən təriflərin qruplaşdırılması**

| Qrup xüsusiyyəti | Müəllif | Tərif |
|---|---|---|
| "Giriş" və "çıxış"ı olan proses | Hammer M., Çampi C. | "Girişində" bir və ya bir neçə növ resursun istifadə edildiyi və bu fəaliyyət nəticəsində "çıxışında" istehlakçı üçün dəyər verən məhsulun yaradıldığı müxtəlif fəaliyyət növlərinin məcmusudur(Hammer M., Champy J.,1993) |
| | Voynov İ.V. | Biznes prosesi, digər iş proseslərindən daxil olan və ya girişləri olan və çıxış və ya nəticələr yaratmaq (müəyyən nəticə və ya nəticələri əldə etmək) üçün müəyyən vəzifələrin həllini həyata keçirən bir prosesdir(Войнов И.В., 2002) |
| | Aqlitski İ.S., Samoldin A.N., Susov R.V. | Biznes prosesinin son məhsulu çıxış olub, daxili, korporativ və ya xarici istehlakçılar üçün zəruri olan məhsuldur (Аглицкий И.С., Самолдин А.Н., Сусов Р.В., 2014, s.28) |
| | Abbasov A.B. | Funksional – psixoloji model biznes-proseslərin yerinə yetirilməsi texnologiyasını müfəssəl açıqlayır, sənədlərin zəruri giriş və çıxış formalarını təsvir edir, həmçinin ayrı-ayrı əməliyyatların yerinə yetirilməsi reqlamentini müəyyənləşdirir(A.B. Abbasov,2011). |

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.4.2024.043

| | | |
|---|---|---|
| | Əliyev M., Həmidov H. | Biznes fəalyyətlərində birdən çox bölmə mövcuddur. Prosesin inputu və outputu bir-biri ilə sıx əlaqəsi olan əməliyyatların məcmusu olduğu unudulmamalıdır(Əliyev M., Həmidov H.,2013,s.438 ). |
| | Davenport T.H | Biznes fəaliyyətinin müəyyən bir çıxışına nail olmaq üçün həyata keçirilən məntiqi cəhətdən qarşılıqlı əlaqədar olan fəaliyyətlər toplusudur(Davenport T. H., Short J. E.,1990, s. 11-27) |
| | | Biznes prosesi giriş və çıxışlarının dəqiq müəyyən edilməsi, başlanğıcı və sonu göstərilməklə, vaxt və məkana görə spesifik olaraq nizamlanmış işlərin, vəzifələrin məcmusudur. Müəyyən bir müştəri və ya bazar üçün müəyyən çıxışın aparılması üçün yaradılmış, qurulmuş ölçülə biləcək fəaliyyət dəstidir(Davenport T. H.,1993) |
| | Porter M. E., Millar V. E. | Biznes prosesi mahiyyətcə istehsal edilən xidmət və ya əmtəənin dəyərinin artırılmasının baş verdiyi istehlakçı cihazlarının qismən daxil olduğu giriş və çıxış nöqtələri, interfeys və təşkilati cihazlar vasitəsilə müəyyən edilir(Porter M. E., Millar V. E.,1985, s. 149-160) |
| | Oyxman E.Q., Popov E.M. | Biznes prosesi bir və ya daha çox girişlə başlayan və müştəri üçün lazım olan məhsulların yaranması və dəyəri, dayanıqlığı, xidməti və keyfiyyəti baxımından onu ödəyən fəaliyyətlərin daxili addımlar (növlər) çoxluğudur(Ойхман Е.Г., Попов Э. М.,1997). |
| | Dövlət standartı, Rəsmi sənəd (18) | Biznes prosesi girişləri çıxışlara çevirə bilmək məqsədilə resursların istifadə və idarə edildiyi fəaliyyətdir. Tez-tez bir prosesin çıxışı birbaşa sonrakı girişi yaradır |
| | Dövlət standartı. Rəsmi sənəd (11) | Biznes prosesi girişləri çıxışlara çevirən bir sıra qarşılıqlı əlaqəli fəaliyyət növləridir |
| Məntiqi ardıcıllığı olan proses | Hammer M., Çampi C. | Biznes prosesi müəyyən bir iş məqsədinə nail olmaq üçün istifadə olunan məntiqi əlaqəli tapşırıqlar qrupudur(Hammer M., Champy J.,1993) |
| | Draker P..F. | Biznes prosesi müştəri və cəlb olunanlar üçün dəyər yaradan hərəkətlərin məntiqi ardıcıllığıdır(Drucker, P.F., 1990) |
| | Zinder E.Z. | Biznes prosesi müştəri üçün məhsul və ya xidmət kimi gələcəkdə faydalı olan öncədən gözlənilən və ya ölçülə bilən yaradılması, əldə edilməsi üçün müəssisə resurslarının istifadə edildiyi bir-birinə bağlı fəaliyyətlərin məntiqi seriyasıdır(Зиндер Е. З., 1996, s. 55-67) |
| | Davenport T.H | Biznes prosesi müəyyən bir müştəri və ya bazar üçün xüsusi xidmətlərin (məhsulun) istehsalı məqsədilə nəzərdə tutulan tədbirlərin strukturlaşdırılmış son dəstidir (Davenport T. H.,1993). |
| | Oyxman E.Q., Popov E.M. | Biznes prosesi müştərinin biznesin istifadəsini necə başlayacağını, aparacağını və tamamlayacağını təsvir edən sistemdə baş verən hadisələrin tam axınıdır(112) |
| Fəaliyyət növü olan proses | Heskett C. | Biznes prosesi şirkətə öz müştəriləri üçün məhsul və ya xidmətlər istehsal etməyə imkan verən əlaqəli, strukturlaşdırılmış hərəkətlər və ya fəaliyyətlər məcmusudur (Heskett J., 2008 ) |
| | Porter M. | Dəyər zənciri müştəriyə real və unikal dəyər verə bilən |

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.4.2024.043

| | | |
|---|---|---|
| | | məhsul və ya xidmətin yaradılmasına yönəlmiş bir-biri ilə əlaqəli fəaliyyətlər ardıcıllığını birləşdirən biznes proseslərindən ibarətdir (Портер М.,2001). |
| | Deminq U. E. | Biznes prosesi təşkilatın işində hər hansı bir fəaliyyət növüdür(Deming W. E,1982) |
| | TeleManagement Forum (175) | Biznes prosesi xüsusi nəticə gətirən funksional əməliyyatların sistemli ardıcıl icrasıdır |

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir

Müəssisələr rəqabət mühitində inkişaf edir və bu səbəbdən zaman keçdikcə müəssisələrin biznes prosesində və strukturunda müəyyən dəyişikliklər tələb olunur (Babayev ,2020). Bu dəyişikliklər biznes proseslərinin təşkilinə birbaşa təsir edir. Biznes prosesinin təşkili təşkilatın məqsədlərinə çatmaq üçün zəruri olan iş əməliyyatlarının ardıcıllığının layihələndirilməsi, idarə edilməsi və optimallaşdırılması prosesidir. Biznes proseslərinin təşkilinin əsas məqsədi şirkətin səmərəliliyini artırmaq, xərcləri azaltmaq, səhvləri minimuma endirmək və məhsul və ya xidmətlərin keyfiyyətini artırmaqdır. Bu, təşkilata daha çevik, bazar dəyişikliklərinə uyğunlaşa və rəqabətə davamlı olmağa imkan verir. Beləliklə, biznes prosesinin təşkili hər hansı bir təşkilat üçün səmərəlilik və rəqabət üstünlüyü əldə etmək üçün vacib idarəetmə vasitəsidir.

Biznes proseslərinin təşkilinə proseslərin təhlili, təsviri, modelləşdirilməsi, avtomatlaşdırılması və nəzarəti, habelə bu proseslər daxilində işçilərin rol və məsuliyyətlərinin müəyyən edilməsi daxildir.

Müəssisənin fasiləsiz və uzudmüddətli fəaliyyət göstərməsi öncəliklə biznes proseslərin idarə edilməsinin təhlilini nəzərdə tutur. Biznes proseslərin təhlili və qiymətləndirilməsi zamanı - biz istehsal etdiyimiz məhsul və xidmətləri ucuz edə və buna müvafiq qiyməti aşağı sala bilərikmi, istifadə etdiyimiz maşın və avadanlıqlar qabaqcıldırmı və onların istehsal güclərindən necə istifadə edilir, istehsal prosesinin bütün fazalarına bizim nəzarət sistemimiz mütərəqqidirmi kimi suallara cavab verilməlidir (İsmayılov, 2018). Təhlilin nəticəsində həyata keçirilməli olan biznes prosesinin optimallaşdırılması müxtəlif metodlar və alətlər, o cümlədən avtomatlaşdırma, standartlaşdırma, prosesin yenidən dizaynı və yeni texnologiyaların tətbiqi ilə aparıla bilər.

Bu gün istənilən sahədə məşğul olan müəssisədə maliyyə idarəçiliyi, istehsalın planlaşdırılması, işçi sənədlərin dövriyyəsi, müştərilərlə qarşılıqlı münasibətlərin idarə olunması, satış və təchizat işlərinin idarə olunması, heyətin idarə olunması kimi proseslər həyata keçirilir (Əliyev və Həmidov, 2013). Belə olan halda biznes proseslərin müəssisə üçün zəruri və əsas olanını müəyyən etmək məsələsi ön plana keçir.

Apardığımız təhlil (Колесова və Некрасов, 2012) belə qənaətə gəlməyə imkan verir ki, istənilən müəssisədə əsas (profil) və köməkçi (qeyri-profil, infrastruktur) proseslər vardır və onların arasındakı fərqləri anlamaq lazımdır. Profil prosesləri şirkətin cari fəaliyyət prosesidir, nəticəsi xarici müştərinin tələb etdiyi məhsulların istehsalıdır. Qeyri-profil proseslər isə əsas proseslərin həyata keçirilməsinə yardımçı olur. Onları bəzən struktur və qeyri-struktur biznes prosesləri kimi də qeyd edirlər (Колесова və Некрасов, 2012). Həmçinin təminedici və idrəetmə üzrə biznes proseslərdə var ki, onlar fəaliyyətin təşkilinə və idarə edilməsinə yönəlir ( Джапаров və Ибрагимова, 2023). Qeyd edək ki, biznes proseslər bütün sahələr üçün əsas, köməkçi, təminedici (əlaqəli) və idarəetmə (strateji, maliyyə, heyət, risk və s. idarəedilməsi üzrə) biznes prosesləri, həmçinin inkişaf və təkmilləşdirmə üzrə biznes proseslər kimi qruplaşdırıla bilsə də, onların tərkibi hər sahə üçün, hətta eyni sahədə fəaliyyət göstərən müxtəlif müəssisələr üçün fərqlidir. Biznes prosesləri məsrəflərə, alıcılar üçün gəlirlərə səbəb

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.4.2024.043

olduğu üçün, onlar arasında əlaqəni müəssisələr səviyyəsində deyil, istehlakçı səviyyəsində anlamaq daha düzgün olar (Məmmədova, 2022; Тарасова, 2020). Bu baxımdan əsas biznes proseslər həm müəssisələrin gəlirinin, həm də istehlakçılar üçün məhsul və xidmətin faydalılığını təmin edən, köməkçi biznes proseslər əsas biznes proseslərə dəstək olasa da istehlakçılar üçün heç bir faydalılıq kəsb etməyən, idarəetmə üzrə biznes proseslər müəssə üçün önəmli olub, istehlakçılar üçün əhəmiyyətli olmayan, əlaqəli biznes proseslər müəssisə üçün gəlir mənbəyi rolunda çıxış etməsə də son məhsulun formalaşmasında əhəmiyyəti olan proseslərdir (35).

Təhlil göstərir ki, biznes proseslərin təsnifləşdirilməsinə fərqli yanaşmalar var. Lakin onları bir araya gətirərək aşağıdakı şəkildə təqdim edirik.

**Cədvəl 2. Bizbes proseslərin təsnifatı**

| **Biznes proseslərin təsnifat xüsusiyyətləri** | **Təsnifata görə biznes proseslərin növləri** |
|---|---|
| Müəssisənin fəaliyyət xüsusiyyətinə görə | İstehsal prosesi (nəticəsi-məhsul)<br>Xidmət prosesi (nəticəsi-xidmət) |
| Biznes prosesin mürəkkəbliyinə görə | Monoproses – tsiklik və eynilik təşkil edən biryönümlü hərəkərlərdən ibarət proses<br>Daxili proseslər – ardıcıllığa ciddi riayət edilən proseslər<br>Əlaqədar proseslər – ilkin plan əsasında ardıcıllığı qurulan proseslər |
| Müəssisənin strukturunda yerinə görə | Üfüqi– iş funksiyaları eyni pozisiyalı işçilər tərəfindən icra olunur<br>Çarpaz (matris) – müxtəlif pozisiyalı işçilərin birgə icrası<br>Şaquli–ierarxiyada müxtəlif səviyyəli işçilərin icrası<br>Pilləli (digər adı inteqrasiya olunmuş proses) – həm üfüqi, həm də şaquli əlaqənin eyni vaxtda icrası |
| Müəssisənin bölmələrinin funksiyalarına görə | İdarəetmə, istehsal, logistika, maliyyə, anbar-saxlama, satış bölmələrinin işinin təşkili və s. |
| Miqyasına görə | Mikroproseslər–yekun prosesin (son məhsulun alınması prosesinin) elementidir<br>Makroproseslər– yekun prosesdir |
| Zəruriliyinə görə | Fəaliyyətin avtomatlaşdırılmasına istiqamətlənib icra edilən<br>İş prosesinin xüsusiyyətinin öyrənilməsində istifadə olunaraq gələcəkdə icra edilməyən |
| Forma və funksiyasına görə | Daxili – daxili məsələlərin həllinə yönəlik olan<br>Xarici – müştəri, tərəfdaş və təchizatçılarla münasibətlrin tənzimlənməsinə yönəlik olan<br>Struktur – iş prosesinin dəstəklənməsi üçün<br>Funksional – cari işlərin icrası üçün olan biznes proseslər |

Mənbə: Müəllif tərəfindən öz əlavələri edilməklə və (Джапаров və Ибрагимова, 2003; Руденко və Храменок, 2013; Война, 2002; Məmmədova, 2022; Babayev, 2020; İsmayılov, 2018) məlumatları əsasında tərtib edilib

**Nəticələr və onların müzakirəsi.** Neft-qaz hasilatı sahəsi bilavasitə inhisar sahəsinə aid edilməklə, öz spesifikliyi ilə seçilir. Bu səbəbdən neft-qaz hasilatı müəssisələrinin biznes prosesləri digər sahələrdə mövcud olan biznes proseslərdən bir çox xüsusiyyətlərinə görə fərqlənir. Əsasən neft-qaz hasilatı zamanı istehsalın növü (geoloji kəşfiyyat, qazma, hasilat, nəqletmə, emal), əməyin predmeti (əmək predmetinin və istismar avadanlığının yeraltıda uzaqda olması, insanın əmək predmetinə birbaşa deyil, quyu qazmaqla təsir göstərməyə

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.4.2024.043

məcbur olması, neft hasilatı prosesinin texnologiyasının unikal xarakterli olması və s.), məhsulun xüsusiyyətləri (yüksək əmək, fond, investisiya, enerji tutumluğu, hasilat və ötürmənin fiksə edilmiş həcmdə olması və s.) biznes proseslərin tərkibinə təsir edir. Biznes proseslərə həm də geoloji, texnoloji, iqtisadi və situativ amillər də təsir edir.

Qeyd edək ki, neft sənayesi müəssisələrində köməkçi istehsal bölmələrinin payı əsas fondların dəyərinin 30-40%, işçilərin sayında 40-50%, əməliyyat xərclərində isə 15-25% təşkil edir (Сыромятников və Победоносцева,1987).

**Cədvəl 3. Neft-qaz hasilatı müəssisələrində biznes proseslərin qruplaşdırılması**

| Qrup | Bianez proses |
|---|---|
| Əsas biznes proseslər | –faktiki hasilat;<br>– səmt qazının toplanması və utilizasiyası;<br>– neft və qazın kompleks hazırlanması;<br>– neftin daşınması və saxlanması;<br>– yeraltı quyuların təmiri;<br>– quyuların və avadanlıqların səthinin təmiri;<br>– quyuların əsaslı təmiri;<br>– quyuların və layların kəşfiyyatı;<br>– mexaniki və enerji avadanlıqlarının quraşdırılması və sökülməsi |
| Köməkçi biznes proseslər | – istismar avadanlığı üçün prokat-təmir sexi;<br>– elektrik avadanlıqları və enerji təchizatı üçün prokat-təmir sexi;<br>– quyuların yeraltı və əsaslı təmiri emalatxanası;<br>– istehsalın avtomatlaşdırılması sexi |
| Təminedici biznes proseslər | – idarəetmə və istehsalat-texniki xidmət bazaları və avadanlıqların konplektləşdirilməsi;<br>– avadanlıqların təmiri üzrə mərkəzi istehsalat xidməti bazası;<br>– enerji neftinin idarə edilməsi;<br>– avtomatlaşdırılmış məlumat ötürmə vasitələrinin istismarı üçün idarəetmə;<br>– avtomobil yolları istismarı idarəsi;<br>–texnoloji nəqliyyat və xüsusi avadanlıqlar, mexaniki təmir zavodları;<br>– yüksək quraşdırma və şlaklama idarələri;<br>– tikinti-quraşdırma idarəsi;<br>– təlim və kurs mərkəzi;<br>– işçi təchizatı şöbəsi;<br>– ticarət və satınalma bazası;<br>– tibb bölməsi;<br>–hərbiləşdirilmiş müdafiə |
| İdarəetmə üzrə biznes proseslər | – Neft-qazçıxarma idarəetməsi;<br>– neft mədənləri idarəetmə;<br>– neft qazının yataqda toplanması və istifadəsi üçün idarəetmə;<br>– gücləndirilmiş neftvermə və quyuların əsaslı təmiri idarəetməsi;<br>– lay təzyiqini saxlamaq üçün texnoloji mayenin hazırlanmasının idarə edilməsi;<br>– klaster informasiya və hesablama mərkəzinin idarə edilməsi |

**Mənbə**: (Джапаров və Ибрагимова, 2023)

Neft kompleksinin texnoloji təminatı üçün biznes proseslərinin təhlili və təkmilləşdirilməsi rəqabət şəraitində çox çətin, lakin zəruri məsələdir. O, müəssisələrin idarə

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.4.2024.043

edilməsi üsulunu və istehsal proseslərinin strukturunu dəyişdirərək istehsalın, təchizatın və təşkilatın optimallaşdırılmasına kömək edə bilər və bununla da gəlirliliyi artırır. Nəticə etibarilə, biznes proseslərinin mahiyyəti müəssisə daxilində müəyyən əməliyyatların, prosedurların və fəaliyyətlərin sistemləşdirilməsi və standartlaşdırılmasından ibarətdir. Bu proseslər konkret məqsədlərə nail olmaq və müştərinin və digər maraqlı tərəflərin tələblərini ödəməyə yönəlmiş ardıcıl hərəkətlərin məcmusudur.

Biznes proseslərin optimallaşdırılması texnoloji prosesin rəqabət aparan xassələri ilə bağlı problemlərin həllini, məsələn, istehsal həcmi - xammal sərfi; istehsalın həcmi – malın keyfiyyəti əlaqəsinin daha təkmil oolmasını nəzərdə tutur, Bu zaman fərqləndirilməli olan məqam məqsədin düzgün seçilməsi ilə bağlı ola bilər. Belə ki, mümkün olan ən yüksək məhsuldarlığa müəyyən edilmiş istehsal maya dəyəri ilə nail olma və minimum istehsal xərcləri ilə planlaşdırılmış məhsuldarlıqda nail olma fərqli optimallaşdırmanı tələb edir. Birinci halda optimallaşdırma məhsuldarlığı, ikinci halda isə maya dəyərinə olan xərclərə yönəlmiş olur. Onu da qeyd edək ki, optimallaşdırma aşağıdan yuxarıya, reinjinirinq və inzibati (direktiv) yanaşma metodları ilə həyata keçirilir.

Biznes proseslərinin təşkili və optimallaşdırılması aşağıdakı şərtlərlə bağlıdır:

– Səmərəlilik və rentabelliyin təmin edilməsi. Biznes prosesləri elə təşkil olunmalıdır ki, müəssisəyə resurslardan optimal istifadə etməyə, xərcləri azaltmağa və məhsul və ya xidmətlərinin keyfiyyətini yaxşılaşdırmağa, məhsuldarlığın artmasına və təşkilatın gəlirliliyinin, rentabelliyinin artmasına töhfə versin.

–Rəqabətliliyin təmin edilməsi. Biznes proseslərini təşkil edən və optimallaşdıran müəssisələr ətraf mühitdəki dəyişikliklərə və müştəri tələblərinə daha sürətli və effektiv cavab verməlidirlər ki, bu da müəssisənin bazarda daha rəqabətli olmasına gətirir.

–Müştərək təkmilləşdirilmiş xidmətin göstərilməsi təcrübəsinin olması. Optimallaşdırılmış biznes prosesləri ilə müəssisələr müştəri ehtiyaclarını daha dəqiq və vaxtında qarşılaya, müştəri məmnuniyyətini artıra və etibarlı məhsul və ya xidmətlərin təminatçısı kimi bazarda nüfuzunu gücləndirə bilir.

– İnnovasiyalardan geniş və vaxtında istifadə. Davamlı olaraq öz biznes proseslərini səmərəli təşkil edən və optimallaşdıran müəssisələr bazardakı dəyişikliklərə daha yaxşı uyğunlaşmaq və proseslərini təkmilləşdirmək üçün yeni texnologiyalar tətbiq etməklə innovasiyalardan geniş istifadə edirlər ki, bu da yeni məhsul və ya xidmətlərin ortaya çıxmasını təşviq edir.

–Risklərin yüksək dərəcədə idarə edilməsi. Biznes proseslərinin təşkili və optimallaşdırılması, əməliyyatların düzgün yerinə yetirilməməsi müəssisələrə əməliyyatlarının yerinə yetirilməsi və məqsədlərə nail olunma ilə bağlı riskləri əvvəlcədən proqozlaşdırmağa və nəzərə almağa, istənilən vəziyyətdə onları daha effektiv idarə etməyə imkan verir ki, bu da itkiləri və problemləri azaltmağa kömək edir.

Beləliklə, biznes proseslərinin təşkili və optimallaşdırılması təşkilatın səmərəliliyinin, rentabelliyinin, rəqabət qabiliyyətinin və uğurunun artırılması üçün əsas vasitədir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Babayev İ.A. Layihələrin idarə edilməsi. Layihələrin idarə edilməsi üzrə dərs vəsaiti. Bakı, “Zərdabi Nəşr” MMC nəşriyyat evi, 2020, 398 s.
2. Biznesin təşkili və idarə edilməsi. Dərslik. Prof. A.B. Abbasovun ümumi redaktəsi ilə. Bakı, “İqtisad Universiteti”, 2011, 464 s.

ISSN 2310-4104 E-ISSN 2790-5799

10.30546/2790-5799.4.2024.043

3. Davenport T. H. Process innovation: reengineering work through information technology. — Boston, Mass.: Harvard Business School Press, 1993. — 337.
4. Davenport T. H., Short J. E. The New Industrial Engineering: Information Technology and Business Process Redesign//Sloan Management Review, 1990, (Summer), 11—27.
5. Deming W. E. Quality, productivity, and competitive position. — Cambridge, MA: Massachusetts Institute of Technology, Center for Advanced Engineering Study, 1982. — 373.
6. Drucker, P.F. (1990). The Practice of Management.
7. Əliyev M., Həmidov H. Biznesdə insan resurslarının idarə edilməsi (dərslik). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2013. - 532 s.
8. Hammer M., Champy J. Reengineering the corporation: a manifesto for business revolution. — New York, NY: HarperBusiness, 1993. — 223.
9. Harrington H. J. Business process improvement: the breakthrough strategy for total quality, productivity & competitiveness, McGraw-Hill, 1991.
10. Heskett J. What Is Management's Role in Innovation?, 2008 (Электронный ресурс), URL: http://hbswk.hbs.edu/item/5821.html
11. ISO/IEC. Оценка и аттестация зрелости процессов создания и сопровождения программных средств и информационных систем (ISO/IEC TR 15504-CMM). — М.: Книга и Бизнес, 2001. — 348.
12. İsmayılov B.V.«Strateji menecment». Dərs vəsaiti. Bakı, «Təhsil», 2018, 296 s
13. Məmmədova K.M. Strateji idarəetmə və liderlik – Ali məktəblər üçün dərs vəsaiti. Bakı,AzMİU "Nəşriyyat- Poliqrafiya Mərkəzi", 2022, 226 s.
14. Porter M. E., Millar V. E. How Information Gives You Competitive Advantage//Harvard Business Review, 1985, 85, (July—August), 149—160.
15. TeleManagement Forum. Telecom Operations Map. Evaluation Version 2.1. — Morristown, NJ: TMForum, 2000a. — 82.
16. Аглицкий И.С., Самолдин А.Н., Сусов Р.В. Экономические аспекты оптимизации бизнес-процессов функционирования коммерческой организации. Экономика и управление: анализ тенденций и перспектив развития. 2014. № 13. С. 27-31.
17. Войнов И.В. Моделирование экономических систем и процессов. Опыт построения ARIS-моделей. – Челябинск: Изд. ЮУрГУ, 2002. – 395 с.
18. Госстандарт. ГОСТ Р ИСО 9001-2008. Системы менеджмента качества. Требования — М.: Стандартинформ, 2008. – 65 с.
19. Джапаров М.Б., Ибрагимова А.Х. Бизнес-процессы нефтегазовых компаний и их учетно-информационное сопровождение в условиях цифровой экономики. Научный журнал "Управленческий учет" № 4, 2023
20. Зиндер Е. З. Новое системное проектирование: информационные технологии и бизнес- реинжиниринг//Системы управления базами данных. — 1996. — № 1. — 55—67.
21. Ишмурадова И.И., Шагаипов Д.Р. Реинжиниринг бизнес-процессов на предприятиях по выпуску хлебобулочных изделий // Экономика, предпринимательство и право. – 2016. – № 1. – с. 37-48.
22. Колесова С.Б., Некрасов В.И. Развитие бизнес-процессов обеспечения производства нефтедобывающих предприятий. Монография. Под общ. ред. Волкова А.Я. – ФГБОУ ВПО «УдГУ», 2012, 168 с.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.4.2024.043

23. Комиссарова М.А. Возможности использования реинжиниринга как основного инструмента управления компаниями с позиций процессного подхода // Креативная экономика. – 2011. – № 7. – с. 10-16.
24. Кутелев П.В., Мишурова И.В. Технология реинжиниринга бизнеса: Учебное пособие. – М.: ИКЦ «МарТ», 2003. – 176 с.
25. Медведев А.В. Теоретические аспекты реинжиниринга бизнес-процессов современного предприятия // Экономика и предпринимательство. – 2016. – № 2. – с. 786-790.
26. Мосьяков И.В. Реинжиниринг бизнес-процессов виртуального предприятия// Вопросы инновационной экономики. – 2011. – № 2. – с. 36-42.
27. Нестеренко В.П., Петрушин С.И., Губайдулина Р.Х., Пашкова Л.А. Методика расчета оптимального варианта технологического процесса в машиностроении // Международный журнал экспериментального образования. – 2015. – № 11-2. – с. 235-238.
28. Ойхман Е.Г., Попов Э. М. Реинжиниринг бизнеса: реинжиниринг организаций и информационные технологии. — М.: Финансы и статистика, 1997. — 333.
29. Остроухова Н.Г. Реинжиниринг бизнес-процессов: взаимосвязь с инновационной деятельностью предприятия // Вестник Астраханского государственного технического университета. – 2015. – № 3. – с. 118-125.
30. Портер М. Конкуренция: Пер. с англ. / Под ред. Я.В. Заблоцкого. - М.: Издательский дом "Вильямс", 2001.
31. Руденко И.В., Храменок С.Е. Теоретические аспекты сущности бизнес-процессов: управление ограничениями // Вестник омского университета. Серия: экономика. 2013. № 3. С. 206-210.
32. Сыромятников Е.С., Победоносцева Н.Н. Организация, планирование и управление нефтегазодобывающими предприятиями. – М.: Недра, 1987. 278 с.
33. Тарасова А.Н. Анализ бизнес-процессов нефтегазовой компании и пути их возможной оптимизации. Московский экономический журнал, №6, 2020
34. Тейлор Ф.У. Принципы научного менеджмента/ Пер. с англ. А.И. Зак. - М.: «Журнал «Контроллинг», 1991. – 104 с.
35. https://www.gd.ru/articles/12747-kak-opisat-biznes-protsessy
36. https://www.gd.ru/articles/9326-optimizatsiya-proizvodstva

# THE ESSENCE OF BUSINESS PROCESSES, THEIR ORGANIZATION, AND THEORETICAL FOUNDATIONS OF OPTIMIZATION

Gunel Sadiq gizi Hamidova

**ABSTRACT**

**Purpose of the research** – To identify the essence of business processes, their organization, and the theoretical foundations of their optimization.
**Research methodology** – Grouping definitions of the concept of business processes, classification of business processes, and grouping of business processes in oil and gas production enterprises.
**Practical significance of the research** – The conducted studies show that in any enterprise, there are primary (core) and auxiliary (non-core, infrastructural) processes, and it is essential to understand the differences between them. The classification of business processes and optimization in oil and gas production enterprises will help solve problems associated with the competitive characteristics of technological processes.

**Research results** – It has been found that ensuring efficiency and profitability, having experience in providing integrated improved services, extensive and timely use of innovations, and managing risks at a high level are key factors in organizing and optimizing business processes to enhance the efficiency, profitability, competitiveness, and success of the organization.

**Scientific novelty of the research** – Definitions of the concept of business processes, their classification, and the comparative study of business processes in oil and gas production enterprises have been investigated.

**Keywords:** business process, process approach, oil and gas, enterprise, optimization, classification.

## СУЩНОСТЬ БИЗНЕС-ПРОЦЕССОВ, ИХ ОРГАНИЗАЦИЯ И ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ОПТИМИЗАЦИИ

Гюнель Садыг кызы Гамидова

### РЕЗЮМЕ

**Цель исследования** – определение сущности бизнес-процессов, их организации и теоретических основ оптимизации.

**Методология исследования** – группировка определений понятия бизнес-процессов, классификация бизнес-процессов, а также их группировка на предприятиях нефтегазодобывающей отрасли.

**Практическая значимость исследования** – Проведенные исследования показывают, что на любом предприятии существуют основные (профильные) и вспомогательные (непрофильные, инфраструктурные) процессы, и необходимо понимать различия между ними. Классификация и оптимизация бизнес-процессов на предприятиях нефтегазодобывающей отрасли позволяет решать проблемы, связанные с конкурентными характеристиками технологических процессов.

**Результаты исследования** – В ходе исследования было установлено, что обеспечение эффективности и рентабельности, наличие опыта предоставления интегрированных улучшенных услуг, широкое и своевременное использование инноваций, а также высокий уровень управления рисками являются ключевыми условиями организации и оптимизации бизнес-процессов для повышения эффективности, рентабельности, конкурентоспособности и успешности организации.

**Научная новизна исследования** – изучены определения понятия бизнес-процессов, их классификация, а также проведено сравнительное исследование бизнес-процессов на предприятиях нефтегазодобывающей отрасли.

**Ключевые слова:** бизнес-процесс, процессный подход, нефть и газ, предприятие, оптимизация, классификация.

*Məqalə daxil olmuşdur: 02.12.2024*
*Təkrar işləməyə göndərilmişdir: 10.12.2024*
*Çapa qəbul edilmişdir: 21.12.2024*

*Дата поступления статьи в редакцию: 02.12.2024*
*Отправлено на повторную обработку: 10.12.2024*
*Принято к печати: 21.12.2024*

*The date of the admission of the article to the editorial office: 02.12.2024*
*Send for reprocessing: 10.12.2024*
*Accepted for publication: 21.12.2024*